*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitinin ELMİ ƏSƏRLƏRİ № 30, 2021*
*УЧЁНЫЕ ЗАПИСКИ Азербайджанского Государственного Университета Культуры и Искусств № 30, 2021*
*SCIENTIFIC NEWS of Azerbaijan State University of Art and Culture № 30, 2021*

**UOT 82.009:7**

**Gülşən Əliyeva-Kəngərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Filologiya elmləri doktoru, professor**
**E-mail: gulshenkengerli@mail.ru**

# DİLİMİZ VƏ TALEYİMİZ

***Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.***
**Heydər Əliyev**

**Xülasə**: Hər bir ölkənin sərhədləri olduğu kimi dilin də sərhədləri var. Ölkənin sərhədlərini əsgərlər, dilin sərhəddini yazıçılar, alimlər, bir sözlə bu dildə danışanlar qorumalıdır. Sərhədləri toxunulmazdır, vətən kimi dil də müqəddəsdir. O, babalardan bizə əmanətdir. Dilin taleyi, elin taleyi, millətin taleyidir. Biz dilin taleyi üçün babaların, demək olar ki, tariximizin qarşısında cavabdehik. Hər bir dilin dəyəri, onun həqiqəti hansı səviyyədə ifadə etməsi ilə ölçülür. Azərbaycan dili bədii-fəlsəfi, elmi-nəzəri ifadə imkanlarına, lüğət təkibinin zənginliyinə görə dünya dilləri sırasında ön sırada durur. Bu gün qloballaşan dünyada milli mədəniyyətlərin inteqrasiyası dövründə ana dilini qorumaq bizim həm ziyalı, həm də vətəndaşlıq vəzifəmizdir. Biz Azərbaycan dilini analarımızın namusu, milli qürurumuz kimi qorumalıyıq. Bu müqəddəs vəzifəni Heydər Əliyevin ləyaqətli varisi, Azərbaycan Prezidenti, müzəffər Ali baş komandan İlham Əliyev yerinə yetirir.

**Açar sözlər**: Azərbaycan dili, Azərbaycançılıq, milli mədəniyyət, milli varlıq, Azərbaycan türkcəsi.

Şəxsiyyətin tarixdə rolu bütün dövrlərdə insanlığı düşündürən aktual problem olmuşdur. Hər bir xalq öz böyük şəxsiyyətləri – yazıçı və alimləri, mütəfəkkirləri, dahi bəstəkarları və rəssamları, liderləri, dövlət xadimləri, sərkərdələri və qəhrəmanları ilə tanınmışdır. Onların şərəfinə şeirlər, mahnılar, dastanlar qoşmuş, heykəllər və abidələr yaratmışlar. Çünki şəxsiyyətlər tarixin yaradıcısıdır. Onlar tarixi irəli aparır, xalqın tarixdə rolunu düzgün qiymətləndirirlər. Şəxsiyyətləri ilə dünyada seçilən Azərbaycan xalqının – türk millətinin XX əsrdə yetirdiyi belə dahi şəxsiyyət ümummilli lider Heydər Əliyev idi.

Onun öz xalqı üçün etdiyi tarixi xidmətlər cild-cild kitablara sığmaz. O, etibarlı rəhbəri olduğu xalqı təşkil etməyi, bir araya gətirməyi, qorumağı bacardı. İnqilablar, repressiyalar, dünya müharibələri ilə müşayiət olunan qalmaqallı XX əsrdə bu çox çətin məsələ idi. Heydər Əliyev müstəqil dövlət, onun ideologiyası

olan Azərbaycançılığı yaradıb formalaşdırdı. Azərbaycançılıq müstəqil dövlətçiliyin, onun daxili və xarici siyasətinin, iqtisadiyyatının, mənəviyyatının təməli idi. Dünya Azərbaycanlılarının I qurultayında o, bütün dünyaya bəyan edirdi: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Bu, əslində XX əsrin əvvəllərində Azərbaycan maarifçi ziyalılarının qoyduğu ənənəyə sədaqət idi. XX əsrin əvvəllərində başlanan ana dili uğrunda mübarizə - Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması ilə nəticələndi.

1913-cü ildə böyük tənqidçi və maarifpərvər ziyalımız Firudin bəy Köçərli yazırdı: "Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir. Bu, Allah-taalanın gözəl nemətlərindən biridir, onu əziz və möhtərəm tutmaq hər kəsə borcdur".

Ana dilini sevmək vətəndaşlığın birinci şərti, iman işidir. Müqəddəs kitabımız olan "Quranı-Kərim"də deyilir: "Ey Rəbbim! dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar". Ana dili müqəddəsdir, o, insanı insan, milləti millət edir, hər bir cəmiyyət və tarix dillə ünsiyyət sayəsində yaranıb yaşaya bilir.

XX əsrin əvvəllərində xəritələrdə "Azərbaycan" kəlməsi, dövlət adı yox idi, "Qafqaziya" yazılırdı. O zaman "Azərbaycan" məqaləsində Cəlil Məmmədquluzadə yazırdı: Ax, unudulmuş vətən, ax yazıq vətən! Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoydular. Bəs sən haradasan, ay biçarə vətən?! ...vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!".

Dilimiz iki min ilə yaxındır ki, bizə xidmət edir. "Azərbaycan xalqı eramızın IV-VII əsrlərində bu ərazidə qədimdən məskun olan türk qəbilə və tayfa birlikləri əsasında formalaşmağa başlamış və ümumxalq Azərbaycan dili məhz bu dövrdə, məhz bu zəmində yaranmışdır". (Fərhad Zeynalov)

Böyük dilçi, professor Bəkir Çobanzadə daha qədimlərə gedib çıxır: "Eramızın II əsrində Bizansdan skiflərə (iskitlərə) bir nümayəndə gəlmiş, özləri ilə yazılı müqavilənamə gətirmişlər. Skiflər də buna cavab olaraq onlara yazılı bir müqavilə göndərir. Bu müqavilənin yazıldığı dil indiki Azərbaycan dilinə yaxın idi."

Bu dil vasitəsilə "Kitabi-Dədə Qorqud" eposu, Orxon-Yenisey kitabələri, Qazi Bürhanəddinin "Divan"ı, Nəsiminin qəzəlləri, dahi Füzuli poeziyası, Vaqifin qoşmaları, M.F.Axundzadənin komediyaları, Mirzə Cəlilin hekayə və dram-

ları, Sabirin "Hophopnamə"si, S.Vuğunun, M.Müşfiqin, R.Rzanın lirik şeirləri yazılmışdır.

Totalitar sovet rejiminin heç bir tarixi əsası olmayan tələbi ilə milli dillər konstitusiyadan çıxarılmış, vahid dövlət dili (rus dili!) siyasəti ortaya atılmışdı. "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvada nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük" (Heydər Əliyev). Heydər Əliyevin bu etirafı böyük tarixi məna daşıyır, tarixi nailiyyətimizlə bağlı acı həqiqəti ifadə edir. Biz burdan nəticə çıxartmalıyıq.

İkinci dəfə hakimiyyətə gəldikdən sonra Ulu öndər dil haqqında fərman verdi. Fərmanda deyilirdi:

"Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur".

Bu təkcə dövlət sənədi deyil, unudulmaz Heydər Əliyevin bizə tarixi vəsiyyəti, əməl etməli olduğumuz vəzifədir. Türk dünyasının böyük istiqlal şairi Bəxtiyar Vahabzadə yazıb:

*Dil açanda ilk dəfə "ana" söyləyirik biz,*
*"Ana dili" adlanır bizim ilk dərsliyimiz.*
*İlk mahnımız laylanı anamız öz südüylə*
*İçirir ruhumuza bu dildə gilə-gilə.*

Bizim ana dilimiz – oğuz dilləri qrupuna daxil olan türkcə- ən zəngin, ən melodik şirin bir dildir.

Bu dildə dünyada 50 milyon Azərbaycan türkü, on o qədər də türk xalqları danışır. Bu dil xoşbəxt dildir ki, onunla tarix yaradılır. Bu dil milli mənəviyyatımıza xidmət edir, günü-gündən zənginləşir, cilalanır, işləndikcə gözəlləşir. Bizim şairlərimiz tarix boyu dilimizi qorumağa çalışmışlar. Azərbaycan xalq şairi Süleyman Rüstəm bu dildə danışan 35 milyon azərbaycanlının istəyini ifadə edərək yazıb:

*Mən, sənin dilinə dəymirəm, cəllad,*
*Gəl sən də bu ana dilimə dəymə!*
*Sənin də bağın var, gülün var, çəkin,*
*Bağımda əkdiyim gülümə dəymə!*

*...Yenicə sağalır vurduğun yara,*
*Mənim bu yaralı könlümə dəymə!*

Bu gün qloballaşan dünyada milli mədəniyyətlərin inteqrasiyası dövründə ana dilini qorumaq bizim həm ziyalı, həm də vətəndaşlıq vəzifəmizdir. Biz Azərbaycan dilinin analarımızın namusu, milli qeyrətimiz kimi qorumalıyıq. Bu müqəddəs vəzifəni Heydər Əliyevin ləyaqətli varisi Azərbaycan Prezidenti, müzəffər Ali baş komandan İlham Əliyev yerinə yetirir. O, 9 aprel 2013-cü ildə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında tarixi fərman vermişdir. Fərmanda "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafını təmin etmək" başlıca vəzifə kimi mütləqləşdirilir. 1 avqust tarixinin "Azərbaycan dili günü" kimi müəyyənləşdirilməsi Prezident İlham Əliyevin dil siyasətinin əsas vəsilələrindən biridir. Azərbaycan dilinə- ana dilimizə belə münasibət Azərbaycan xalqında böyük rəğbət doğurur, dilin sahibi kimi onun milli mövqeyini möhkəmləndirir. Siyasət dövlətin, dil isə millətin kimliyini göstərən əlamətdir.

Qeyd etdiyimiz kimi XX əsrin əvvəllərində fədakar, maarifpərvər ziyalılarımız - Firudin bəy Köçərli, Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Üzeyir bəy Hacıbəyli, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Mirzə Əli Möcüz, Abbas Səhhət, Əhməd Cavad dilimiz haqqında məqalə və şeirlər yazır, onu yad təsirlərdən qorumağa çalışırdılar. "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndəsi Mirzə Cəlilin silahdaşı Əli Nəzmi "Dil məsələsi" adlı şeirində yazırdı:

*Dil var ikən gəlin lisan deməyək,*
*Döndərib farscaya zəban deməyək.*
*Hər kəsin var ikən dili, ağızı,*
*Ağıza and içək, dəhan deməyək.*
*Ərəbi göndərək öz evlərinə,*
*Farsa da qal bizdə mehman deməyək.*

Yüz ildən artıq bir zaman keçsə də bu (və bu kimi!) şeirlər öz əhəmiyyətini itirməyib, bu gün də olduqca aktualdır. Çünki, "Türkün dili tək sevgili, istəkli dil olmaz, Özgə dilə qatsan, bu əsil dil əsil olmaz." (Məhəmmədhüseyn Şəhriyar)

Hər bir ölkənin sərhədləri olduğu kimi dilin də sərhədləri var. Ölkənin sərhədlərini əsgərlər, dilin sərhəddini yazıçılar, alimlər, bir sözlə, bu dildə danışanlar qorumalıdır. Sərhədləri toxunulmazdır, vətən kimi dil də müqəddəsdir. O, babalardan bizə əmanətdir. Dilin taleyi, elin taleyi millətin taleyidir. Biz dilin taleyi üçün babaların, demək olar ki, tariximizin qarşısında cavabdehik.

Hər bir dilin dəyəri, onun həqiqəti, hansı səviyyədə ifadə edilməsi ilə ölçülür, yalan, ədalətsizlik, böhtan-əcaib söhbətlər dili incidir, sözü urvatdan salır. Azərbaycan dili bədii-fəlsəfi, elmi-nəzəri ifadə imkanlarına, lüğət təkibinin zən-

ginliyinə görə dünya dilləri sırasında ön sırada durur. Bu dildə gözəl hekayələr, povest və romanlar, iyirmidən artıq lirik-psixoloji dram əsəri yazmış milli ədibimiz İlyas Əfəndiyev belə bir etiraf edir: "Azərbaycan dili ən dərin, ən fəlsəfi fikirləri belə, dürüst ifadə üçün hədsiz imkanlara malikdir".

Bu sadə və adi qeydləri böyük şəxsiyyətin, dahi azərbaycanlının fikirləri ilə sübut etmək istəyirik: "Azərbaycan dili! Bu gün iftixarla deyə bilərik ki, Sovet hakimiyyəti illərində biz Azərbaycan dilini qoruduq, saxladıq və inkişaf etdirdik. Azərbaycan dili indi çox yüksək səviyyədə olan bir dildir. Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. Mədəniyyət və dil qədər insanın millətini ucaldan şey yoxdur. İki şey insanın milliliyini, millətini ucaldır. Onun biri dildir, ikincisi mədəniyyətdir.

Bizim Azərbaycan dili şeir dilidir. Dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik."

Əmin ola bilərik ki, ana dilimiz – Azərbaycan türkcəsi bu zamana qədər olduğu kimi, bundan sonra da millətimizi tarixin sınaqlarından əzmlə çıxaracaq, bizi daha müzəffər sabahlara aparacaq.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan yazıçılarının X Qurultayında nitqi. 30 oktyabr 1997. H. Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I cild. Bakı, Azərnəşr, 1997
2. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı". Bakı, Şərq-Qərb, 2009, s. 244.
3. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002, s. 162
4. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, Ozan, 1999, c.23
5. H. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1999
6. A. Əliyeva-Kəngərli. H. Əliyev və elm. Bakı, Şərq-Qərb, 2010
7. S.Xəlilov. Fəlsəfə: Tarix və müasirlik. Bakı, 2006

**Гюльшен Алиева-Кенгерли**

## Наш язык и судьба

**Резюме:** Как каждая страна имеет свои границы, так и ее язык. Границы страны должны охранять солдаты, границы языка должны охранять писатели, ученые, словом, те, кто говорит на этом языке. Его границы неприкосновенны, а язык священен, как родина. Это наследие наших предков. Судьба языка, судьба народа - это судьба нации. Мы несем

ответственность за судьбу языка перед нашими предками, перед своей историей. Ценность каждого языка измеряется его истинностью, на каком уровне он выражен. Азербайджанский язык находится на переднем краю мировых языков, благодаря своему художественно-философскому, научно-теоретическому выражению и богатству словарного запаса. В сегодняшнем глобализированном мире, в эпоху интеграции национальных культур, наш интеллектуальный и гражданский долг - защитить наш родной язык. Мы должны защищать азербайджанский язык как честь наших матерей, нашу национальную гордость. Эту священную задачу выполняет достойный преемник Гейдара Алиева, Президент Азербайджана, победоносный Верховный Главнокомандующий Ильхам Алиев.

**Ключевые слова:** Азербайджанский язык, Азербайджанство, национальная культура, национальное бытие, Азербайджанский тюркский.

**Gulshan Aliyeva-Kangarli**

**Our language and our destiny**

**Summary:** Every country has its own borders and language. The borders of the country must be guarded by soldiers, and the borders of the language must be guarded by writers, scholars, in short, those who speak this language. The borders are inviolable, the language is as sacred as the Motherland. It is a legacy of our ancestors. The fate of the language, the fate of the people is the fate of the nation. We are responsible for the fate of our language, almost our history. The value of each language is measured by its truth, at what level it is expressed. The Azerbaijani language is at the forefront of world languages with its rich artistic-philosophical, scientific-theoretical expression and vocabulary. In today's globalized world, in the era of integration of national cultures, it is our intellectual and civic duty to protect our mother tongue. We must protect the Azerbaijani language as the honor of our mothers, our national pride. This sacred task is realized by the worthy successor of Heydar Aliyev, President of Azerbaijan, and victorious Supreme Commander-in-Chief Ilham Aliyev

**Key words:** Azerbaijani language, Azerbaijanism, national culture, national existence, Azerbaijani turkish.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25. 09. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**